# Gəncədə “Nizami Gəncəvi ili”nə həsr olunmuş növbəti tədbir keçirilib







**Gəncə Tibb Kollecində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.**

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin deputatı Musa Quliyev, kollecin rəhbərliyi, müəllim və tələbə kollektivi iştirak etmişlər.

Tədbirin əvvəlində Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra kollecin direktoru Mehman Hüseynov dahi şairin 880 illiyi ilə əlaqədar Prezident İlham Əliyevin imzaladığı sərəncamın əhəmiyyətindən danışmışdır. Qeyd etmişdir ki, Nizami Gəncəvi dövrünün mühüm mədəniyyət mərkəzlərindən olan Gəncədə yaşayıb-yaratmışdır. O, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Onun geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Dövlət başçısının sərəncamı ilə 2021-ci ilin Azərbaycanda “Nizami Gəncəvi ili” elan edilməsi dahi şairin zəngin irsinin daha dərindən öyrənilməsi, o cümlədən dünyada geniş təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir.

Sonra kollecin tələbələrinin ifasında dünya ədəbiyyatının incisi hesab edilən Nizami Gəncəvinin müdrik kəlamları səsləndirilmiş, dahi şairin həyat və yaradıcılığına həsr olunmuş film nümayiş etdirilmişdir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

Azərbaycan.- 2021.- 30 oktyabr.- S.8.